Aqrar islahatların müasir artım tempinin sürətlənməsi və

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatların birinci dövrü ölkənin sosial-iqtisadi tərəqqisinin bütün mərhələlərində kənd təsərrüfatı sahəsinin inkişafı üçün möhkəm təməl yaratmışdır. İlk növbədə məhz bu islahatların nəticəsində kənd təsərrüfatı sahəsinin keçid dövrünün əvvəlki mərhələsində məruz qaldığı dərin böhran inkişaf dinamikası ilə əvəz olunmuş, digər tərəfdən, kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı bazar iqtisadiyyatı ölkələrində tətbiq edilən müvafiq tənzimlənmə və dəstək mexanizmlərinin sonrakı dövrlərdə mərhələ- mərhələ Azərbaycanda da tətbiqinə başlanılmışdır. Bu islahatlar nəticəsində ölkənin aqrar sektorunda bazar münasibətləri və torpağın kəndlilərin özəl mülkiyyətinə verilməsinə əsaslanan təsərrüfatçılıq sistemi müvəffəqiyyətlə formalaşdırılmışdır. Məhz buna görə də ümummilli liderin müəllifi olduğu aqrar islahatların Azərbaycan modeli beynəlxalq təşkilatlar tərəfindən “ədalətlilik prinsiplərinə əsaslanan, bazar münasibətlərinə sürətli keçidə və sahənin davamlı inkişafına möhkəm təməl yaradan” konsepsiya kimi xarakterizə olunur.

Azərbaycan dövləti tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı sahəsinə daim mühüm diqqət yetirilir. Təsadüfi deyil ki, ölkədə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasının mühüm vasitələrindən biri olan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş 05 fevral 2014-cü il tarixli konfransda cənab İlham Əliyev bunu bir daha vurğulamışdır: *“Kənd təsərrüfatının inkişafı növbəti illərdə iqtisadi sahədə prioritet olaraq qalacaqdır. Biz daim buna böyük diqqət göstərmişik. Kənd təsərrüfatının inkişafı ilə bağlı yeni tədbirlər görüləcəkdir.*

Nazirlikdə struktur dəyişiklikləri aparılmalıdır. Buna böyük ehtiyac vardır. Bu yeni struktur müasir tələblərə cavab verməlidir. Sistem xarakterli islahatlara üstünlük verilməlidir. Kənd təsərrüfatının inkişafında ən müasir, mütərəqqi metodlar tətbiq edilməlidir”.

Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” 16 yanvar 2014-cü il tarixli Sərəncamı və “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” 16 aprel 2014-cü il tarixli Fərmanı əsasında ölkədə aqrar islahatların yeni mərhələsinin başlaması ilə bağlı zəruri siyasi qərarlar qəbul olundu, bu islahatların müvafiq istiqamətləri müəyyən edildi. Bu siyasi qərarlar ölkədə aqrar sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinə rəvac verdi, bununla da aqrar sahədə inkişafın keyfiyyətcə yeni mərhələsinə keçid üçün baza yaratdı. Bu tədbirlərin tərkib hissəsi olaraq, eləcə də BMT-nin Baş Assambleyası tərəfindən 2015-ci ilin “Beynəlxalq Torpaq İli” bəyan edilməsi ilə bağlı qlobal çağırışa qoşularaq 2015-ci ilin Azərbaycanda “Kənd təsərrüfatı ili” elan edilməsi barədə cənab Prezident tərəfindən müvafiq sərəncam imzalandı.

2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı konkret tədbirlər planı müəyyən olundu. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli Sərəncamı ilə “2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edildi. 5 istiqamətdə 50 tədbiri özündə ehtiva edən bu Tədbirlər Planının icrası da ölkədə aqrar islahatların sürətləndirilməsinə yeni impuls vermişdir.

Beləliklə, ölkədə aqrar islahatların yeni mərhələsi ilə bağlı dövlət başçısı tərəfindən verilmiş siyasi qərarlara və müəyyən olunmuş istiqamətlərə uyğun son 2 il ərzində aşağıdakı məsələlərlə bağlı kompleks tədbirlər həyata keçirilmişdir:

- Kənd təsərrüfatı sahəsinə dövlət dəstəyinin gücləndirilməsi, həmçinin bu dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsi və dövlət yardımları sahəsində şəffaflığın ən yüksək səviyyədə təmin edilməsi;
- Kənd Təsərrüfatı Nazirliyinin institusional potensialının gücləndirilməsi və struktur dəyişikliklərinin aparılması, o cümlədən “elektron kənd təsərrüfatı” informasiya sisteminin yaradılması;
- Kənd təsərrüfatı sahəsi üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi;
- Kənd təsərrüfatının inkişafı ilə bağlı ən müasir, mütərəqqi metodların tətbiq edilməsi;
- Kənd təsərrüfatı sahəsinin intensiv metodlarla inkişaf etdirilməsi.

Kənd təsərrüfatı sahəsinə dövlət dəstəyi artırılmışdır

Dövlət başçısının tapşırığına əsasən 2014-cü ilin avqust ayından etibarən “Aqrolizinq” ASC tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikalarının ilkin dəyərinə 40 faiz həcmində güzəşt tətbiq edilmişdir. Bu güzəştli şərtlərin istehsalçılar üçün olduqca əlverişli olması ilə yanaşı, həmin şərtlərlə istehsalçılara kifayət qədər kənd təsərrüfatı texnikalarının təqdim olunması üçün də dövlət tərəfindən zəruri tədbirlər görülmüşdür. Bunların nəticəsində, 2014-cü il və 2015-ci ilin ötən 9 ayı ərzində “Aqrolizinq” ASC tərəfindən müasir aqrotexniki tələblərə cavab verən və daha çox Avropa istehsalı olan 6190 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 398 ədəd kombayn, 2158 ədəd traktor, 27 ədəd ekskavator və 3607 ədəd digər texnikalar istehsalçılara lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır. Bu göstəricilərin əvvəlki dövrlə müqayisəsi üçün təkcə bir faktı qeyd etmək olar ki, 2005-2013-cü illər ərzində lizinqə verilmiş və ya lizinq yolu ilə satılmış cəmi kənd təsərrüfatı texnikalarının sayı 11179 ədəd, o cümlədən kombaynların sayı 310 ədəd, traktorların sayı 3916 ədəd, ekskavatorların sayı 103 ədəd, digər texnikaların sayı isə 6850 ədəd olmuşdur. Başqa sözlə, son 1 il 9 ay ərzində istehsalçılara lizinqə verilmiş və ya lizinq yolu ilə satılmış kənd təsərrüfatı texnikalarının sayı göstəricisi, ötən 9 il üzrə müvafiq göstəricilərin yarısından çoxdur, kombayn üzrə bu göstərici isə mütləq olaraq yuxarıdır. Bundan əlavə, 2014-cü il və 2015-ci ilin ötən 9 ayı ərzində 574 ədəd kənd təsərrüfatı texnikaları, o cümlədən 392 ədəd kombayn, 29 ədəd traktor, 3 ədəd ekskavator və 150 ədəd digər texnikalar “Aqrolizinq” ASC-nin rayon bölmələrinin istifadəsinə verilmişdir. Məhz bunların nəticəsidir ki, istehsalçıların kənd təsərrüfatı texnikası ilə təminatının əsaslı şəkildə yaxşılaşdırılması hesabına son iki ildə məhsul yığımı vaxtında, sürətlə və daha az itki ilə aparılmış, fermerlərin texnika təminatında əvvəlki illərdə müşahidə olunan çətinliklər köklü şəkildə həll olunmuşdur. Taxıl biçən kombaynlara olan tələbatın ödənilməsi isə əsaslı şəkildə təmin olunmuş, hazırda demək olar ki, yalnız köhnə kombayn parkının yenilənməsi istiqamətində tədbirlər həyata keçirilir.

Ötən ilin avqust ayında təsdiq edilmiş yeni “Qaydalara” əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarına satılan gübrəyə görə tətbiq edilən güzəştlərin həcmi 50 faizdən 70 faizə və ya güzəşt edilən yardımın yuxarı həddi 50 manatdan 80 manata artırılmışdır. Bunun nəticəsində məhsuldarlığın yüksəldilməsinin mühüm şərtlərindən biri olan mineral gübrələrdən istifadə səviyyəsi daha da artırılmışdır. Belə ki, əgər əvvəlki illərdə hər il orta hesabla ölkəyə 80-90 min ton həcmində mineral gübrələr idxal olunurdusa, 2014-cü ildə bu göstərici 153,6 min tona yüksəlmiş, 2015-ci ilin təkcə 8 ayı ərzində bu göstərici 83 min ton olmuşdur. Buna uyğun gübrənin güzəştli satışına görə dövlət büdcəsindən verilən subsidiyanın da həcmi artmışdır. Belə ki, əgər 2012-2013-cü illərdə gübrənin güzəştli satışı üçün təqribən 20-22 milyon manat subsidiya verilirdisə, 2014-cü ildə bu göstərici 32,5 milyon manat, 2015-ci ilin 9 ayı üzrə isə 31,8 milyon manat olmuşdur.

2015-ci ilin “Kənd təsərrüfatı ili” elan olunması ilə bağlı Tədbirlər Planında nəzərdə tutulduğu kimi, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət qayğısının daha da artırılması tədbirləri çərçivəsində hər hektar sahənin əkinində istifadə olunan yanacaq və motor yağlarına görə dövlət büdcəsindən verilən subsidiyanın həcmi 25 faiz artırılaraq 50 manat olmuşdur. Bununla da cari mövsümdə kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahələrində istifadə etdikləri yanacaq və motor yağlarına görə ümumilikdə 63,2 milyon manat məbləğində yardım verilmişdir ki, bu da ötən ilin müvafiq göstəricisindən 22 faiz çoxdur.

Ümumiyyətlə, dünya iqtisadiyyatında baş verən proseslərə uyğun dövlət büdcəsi xərclərinə qənaət rejiminin tətbiq olunması fonunda belə kənd təsərrüfatı sahəsinə yönələn çoxşaxəli dövlət dəstəyi tədbirləri və bu çərçivədə dövlətin müvafiq maliyyə öhdəlikləri tam şəkildə təmin edilir. Belə ki, cari mövsümdə yanacaq-motor yağlarına, buğda əkininə və gübrənin güzəştli satışına görə büdcədən ayrılan subsidiyaların həcmi ötən mövsümlə müqayisədə 7,4 faiz çox olmuşdur.

Cari mövsümdən etibarən hər hektar sahənin əkinində istifadə olunan yanacaq və motor yağlarına görə verilən subsidiya, habelə gübrənin güzəştli şərtlərlə satışı təkrar əkinlərə də şamil olundu ki, bu da yem təminatının gücləndirilməsi baxımından xüsusilə mühüm əhəmiyyətə malikdir.

Kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılması baxımından mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də istehsalçıların keyfiyyətli toxumla təminatının yaxşılaşdırılmasıdır. “Toxumçuluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun məhsul istehsalçılarının yüksək məhsuldar və quraqlığadavamlı toxum sortlarına tələbatlarının stabil və əlverişli şərtlərlə ödənilməsinə dəstək məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Dövlət Toxum Fondunun yaradılması haqqında möhtərəm Prezident tərəfindən 2 mart 2015-ci il tarixli sərəncam imzalanmışdır. Yaradılan Dövlət Toxum Fondu məhsul istehsalçılarını keyfiyyətli toxumla təmin etmək və təbii fəlakətə məruz qalmış bölgələrə köməklik göstərmək funksiyalarını həyata keçirəcəkdir. Bu fəaliyyətlərin təmin olunması məqsədilə dövlət reyestrinə daxil edilmiş bitki sortlarının toxumları dövlət fonduna tədarük olunacaqdır. Fondun fəaliyyətinin təmin olunması məqsədilə hazırda müvafiq normativ hüquqi bazanın formalaşdırılması başa çatmaq üzrədir.

Ölkədə intensiv ferma modelinə dəstək tədbirləri çərçivəsində istehsalçıların güzəştli lizinq şərtləri hesabına məhsuldar cins heyvanlarla təminatı istiqamətində də müvafiq dövlət dəstəyi tədbirləri genişləndirilmişdir. “Aqrolizinq” ASC vasitəsilə 2014-cü ildə 2918 baş, 2015-ci ilin 9 ayı ərzində isə 4356 baş iribuynuzlu damazlıq heyvan gətirilərək dəyərinin 50 faizi həcmində və güzəştli lizinq şərti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmişdir. Həmçinin 2014-cü ildə 3236 baş, 2015-ci ilin 9 ayı ərzində isə 1050 baş xırdabuynuzlu damazlıq heyvan gətirilərək eyni miqdarda güzəştli şərtlərlə istehsalçılara verilmişdir. Son 1 il 9 ay ərzində gətirilən iribuynuzlu damazlıq heyvanların sayının əvvəlki illərdə gətirilənlərə nisbəti 84 faiz, xırdabuynuzlu damazlıq heyvanlar üzrə bu göstərici isə 2.6 dəfədən çox təşkil edir.

Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması istiqamətində institusional bazanın, o cümlədən maddi-texniki təminatın gücləndirilməsi istiqamətində də zəruri dövlət dəstəyi həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına Respublika Süni Mayalama Mərkəzinin köklü şəkildə modernləşdirilməsinə başlanılmış, bu məqsədlə texniki dəstəyin göstərilməsi üçün Fransadan və Almaniyadan ekspertlər cəlb olunmuşdur.

Kənd təsərrüfatı sahəsinə dövlət yardımları sahəsində şəffaflıq təmin edilmişdir

Dövlət başçısının tapşırığına əsasən kənd təsərrüfatına verilən dövlət yardımları sahəsində şəffaflığın artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət yardımının verilməsi üzrə Respublika Komissiyasının qərarı ilə aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən təşkil olunmuş monitorinq qrupu tərəfindən seçmə qaydada müəyyən olunmuş rayonlar üzrə istehsalçılara buğda səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımlardan istifadənin müvafiq qaydalara uyğunluğu yoxlanılmışdır. Monitorinq aparılmış rayonlarda buğda əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına verilmiş yardımlardan istifadə sahəsində bir sıra hüquqpozmalar müəyyən edilmişdir. Bunları nəzərə alaraq həmin rayonlar üzrə aparılmış monitorinqlərin ilkin nəticələrinə dair toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir. Eyni zamanda, kənd təsərrüfatı texnikasının güzəştli lizinq şərtləri ilə istehsalçılara verilməsi prosesinin müvafiq qaydalara uyğun və şəffaf aparılması ilə bağlı kompleks yoxlamalar həyata keçirilmiş, bu istiqamətdə baş vermiş pozuntularla bağlı materiallar hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim olunmuşdur.

Həmçinin Respublika Komissiyasının qərarı ilə subsidiyaların verilməsində vasitəçi olan bankla birgə kənd təsərrüfatı məhsulları istehsalçılarına yardımların alınması üçün verilmiş ödəniş kartları üzrə inventarizasiya işləri aparılmış, bu kartların yalnız hər bir istehsalçının özü tərəfindən qəbul olunmaqla paylanması təmin olunmuş, istifadə olunmayan ödəniş kartları ləğv edilmişdir.

Müvafiq inzibati tədbirlərlə yanaşı, subsidiyalar prosesi üzrə ictimai məlumatlılığı artırmaq üçün həm buğda və çəltik əkininə görə, həm də əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilmiş kənd təsərrüfatı məhsulları istehsalçılarının siyahısı, onların əkin sahələri və verilmiş yardımın məbləği haqqında məlumatlar Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Bunun hesabına vətəndaşlardan, QHT-lərdən və digər maraqlı tərəflərdən bu sahədə müşahidə olunan mənfi hal və ya pozuntular barədə məlumatlar alınmış və Nazirliyin monitorinq qrupu tərəfindən adekvat tədbirlər görülmüşdür.

Eyni zamanda, cari ildən etibarən kənd təsərrüfatının inkişaf meyilləri, kənd təsərrüfatı sahəsinə edilən dövlət yardımları və bu sahənin inkişafı ilə bağlı görülən digər işlər barədə məlumatlar üzrə hər ay Azərbaycan və ingilis dillərində “Kənd təsərrüfatı” aylıq informasiya bülleteni hazırlanaraq nəşr olunur, həmçinin Nazirliyin internet səhifəsi vasitəsilə yayımlanır.

“Elektron kənd təsərrüfatı” sisteminin yaradılmasına başlanılmışdır

Müasir dövrdə idarəetmədə şəffaflığın və səmərəliliyin artırılması baxımından dövlət başçısı tərəfindən mühüm vəzifə kimi müəyyən olunmuş elektron hökumətin genişləndirilməsi siyasətinə uyğun, “Elektron kənd təsərrüfatı” informasiya sisteminin yaradılması istiqamətində də qısa müddət ərzində geniş miqyaslı işlər görülmüşdür. Beynəlxalq ekspertləri cəlb etməklə, bu istiqamətdə zəruri ehtiyacların müəyyənləşdirilməsi məqsədilə mövcud hüquqi və təşkilati çərçivələr təhlil edilmiş, “Elektron kənd təsərrüfatı” informasiya sisteminin yaradılması üçün strategiya sənədi və Avropa İttifaqının təcrübəsinə uyğun “İnteqrasiya olunmuş nəzarət sisteminin” (IACS) prinsiplərinə əsaslanan və 7 alt moduldan ibarət informasiya sistemin qurulması üçün texniki şərtlər hazırlanmışdır. Bunun əsasında xidmətlərin satın alınması məqsədi ilə beynəlxalq tender keçirilmiş, xarici və yerli ekspertlər qrupundan ibarət konsorsium icraçı qurum kimi seçilmişdir.

Hazırda Avropa təcrübəsinə uyğun İACS prinsiplərinə əsaslanan Torpaq Sahələrinin İdentifikasiyası Sistemi, Fermer Təsərrüfatlarının Reyestri, Biznes Təhlili və Hesabatlar, Sənədlərin İdarə Olunması, Ərizələrin Emalı, Ödənişə İcazə və Risklərin Təhlili modullarında ibarət “Subsidiya və siyasətə dair informasiya sistemi”nin tətbiqi üçün praktiki fəaliyyətlər həyata keçirilir. Belə ki, subsidiya siyasətinə cəlb edilən torpaq sahələrinin faktiki istifadə vəziyyətinə, əkin növünə və mədəni bitki örtüyünə görə identifikasiyası, coğrafi informasiya sistemləri texnologiyalarına əsaslanan “Torpaq Sahələrinin İdentifikasiyası”, kənd təsərrüfatı məhsulları istehsalçılarının qeydiyyatını aparan “Fermer Təsərrüfatlarının Reyestri”, subsidiya üçün ərizələrin qeydiyyatını və təhlilini aparan “Ərizələrin Emalı” modulları qurularaq test sınağı aparılmışdır. Hazırda Xaçmaz rayonu üzrə müvafiq məlumatların daxil edilməsi və sistemin pilot tətbiqi həyata keçirilir.

Torpaqların elektron uçot sisteminin aparılmasında əsas vasitələrdən olan və ərazilərin müasir vəziyyətə uyğun aero və peyk təsvirlərinə əsaslanan məkan məlumatlarının, habelə kənd təsərrüfatı yerləri və bitki örtüyünün müəyyən edilməsinə və torpaqların coğrafi məlumatlar bazasının formalaşdırılmasına xidmət edən yeni ortofoto xəritələrin yaradılması üçün texniki tələblər və layihənin icra qrafiki hazırlanaraq aidiyyəti dövlət qurumları ilə razılaşdırılmışdır. Bu layihə çərçivəsində həyata keçiriləcək geodeziya, topoqrafiya və kartoqrafiya işləri ölkənin müdafiəsi, təhlükəsizliyi və strateji maraqları ilə bağlı olduğu nəzərə alınaraq həmin işlərin icrası üçün ölkə ərazisində fəaliyyət göstərən ixtisaslaşmış, həmçinin dövlət sirri təşkil edən məlumatların mühafizəsi və məxfi kargüzarlıq üzrə maddi-texniki bazaya və təcrübəyə malik dövlət müəssisələrinin cəlb edilməsi məqsədəuyğun hesab edilmiş və beləliklə, “Elektron kənd təsərrüfatı” layihəsi üçün yeni ortofoto planların hazırlanması barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Dövlət Aerogeodeziya Müəssisəsinə sifariş verilmişdir.

Bununla yanaşı, ölkə üzrə 21 min kvadratkilometr ərazinin ortofoto planları “Azərsky” peykindən çəkilən təsvirlər əsasında hazırlanacaqdır. Artıq layihənin icra planına uyğun həm təyyarədən, həm də “Azərsky” peykindən çəkilişlərin həyata keçirilməsinə başlanılmışdır. Bundan əlavə, kənd təsərrüfatı məqsədləri üçün gələcəkdə də peyk şəkillərinin əldə olunması, “Azersky” peykinin təsvirlərindən istifadə etməklə “məsafədən ayırdetmə” işlərinin görülməsi, o cümlədən şəkillərdən hansı analizlərin və nəticələrin əldə ediləcəyi, bitki örtüyü, bitki sağlamlığı, məhsuldarlığın hesablanması, torpağın münbitlik vəziyyəti, şorlaşma, eroziyaya uğrama və s. məsələlərin həlli istiqamətində birgə layihələrin həyata keçirilməsi ilə bağlı “Azərkosmos” ACS ilə müzakirələr aparılmış və müvafiq hazırlıq işlərinə başlanılmışdır.

Torpaqların elektron uçotunun aparılmasının əsasını rəqəmsallaşdırılmış coğrafi məlumatlar təşkil etdiyi üçün, ilkin tədbir kimi kənd təsərrüfatı təyinatı torpaqların coğrafi məlumat bazasının strukturu və tərkibi formalaşdırılmışdır.

Mövcud olan ortofoto xəritələr, eyni zamanda, Nazirliyə təqdim edilmiş bəzi istinad məlumatları və mövcud digər kartoqrafik məlumatlar əsasında “Elektron kənd təsərrüfatı” informasiya sisteminin strukturuna uyğun torpaq sahələrinin coğrafi məlumatlar bazasının formalaşdırılması, o cümlədən Nazirliyin tabeliyində olan müəssisə və təşkilatların torpaq sahələri, müvafiq hökumət qərarları əsasında təyinatı dəyişdirilən torpaqlar, inzibati ərazi vahidlərinin sərhədləri, minalardan təmizlənmiş ərazilər və digər məlumatların vahid informasiya sisteminə daxil edilməsi işləri həyata keçirilir.

“Elektron kənd təsərrüfatı” informasiya sisteminin ölkə üzrə kompleks tətbiqi və idarə olunmasını təmin etmək üçün Nazirlik və onun rayon (şəhər) idarələrinin yeni tikilən inzibati-laboratoriya binalarında zəruri informasiya və kommunikasiya texnologiyaları infrastrukturunun, o cümlədən məlumat mərkəzi üçün serverlər, təhlükəsizlik sistemləri, yaddaş qurğuları (storage), kompüter texnikası, printerlər, İP telefoniya sistemləri, müasir ölçmə cihazları (GPS), şəbəkə və rabitə avadanlıqları, əməliyyat sistemləri və proqram təminatı paketləri, Çağrı mərkəzi və digər İT avadanlıqlarının alınması və quraşdırılması, avtomatlaşdırılmış iş yerlərinin, habelə Nazirliyin məlumat mərkəzi ilə tabeli qurumları arasında korporativ şəbəkə infrastrukturunun yaradılması işləri də davam etdirilir.

Bunlarla yanaşı, heyvandarlıqla məşğul olan fermer təsərrüfatları və digər dövlət baytarlıq nəzarəti obyektlərinin elektron qeydiyyatına başlanılmışdır. Kənd təsərrüfatı heyvanlarının qeydiyyatı, heyvan xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri, aylıq və rüblük baytarlıq hesabatlarının “Xəstəliklərin Elektron Müşahidə Sistemi” və Az.VET elektron informasiya sistemində həyata keçirilməsi işləri davam etdirilir. Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı sisteminin beynəlxalq standartlar əsasında qurulması üçün Dünya Bankı ilə birlikdə həyata keçirilən layihə çərçivəsində beynəlxalq məsləhətçilərin seçilməsi üçün açıq tender elan edilmiş, Avropa şirkətlərinin konsorsiumundan ibarət beynəlxalq məsləhətçilər qrupunun seçilməsi başa çatdırılmışdır.

Həmçinin “Aqrolizinq” ASC tərəfindən aparılan bütün əməliyyatların elektron-uçot sisteminə keçirilməsi başa çatdırılmış, o cümlədən güzəşt tətbiq edilən texnikalarla bağlı xüsusi proqram təminatı hazırlanmış və elektron məlumat bazası yaradılmışdır. 1 noyabr 2014-cü ildən etibarən “Aqrolizinq” ASC tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikalarının və cins heyvanların əldə edilməsi üçün müraciətlərin tam şəkildə elektronlaşdırılması həyata keçirilmişdir.

Milli Məclisin Kənd təsərrüfatı komitəsi

Bundan başqa, cari ilin iyun ayından etibaren "Dövlət texniki nəzarət avtomatlaşdırılmış informasiya sistemi" istisnara verilməsidir ki, bu informasiya sistemi vasitəsi ilə Kənd təsərrüfatı texnikası, traktorlar və meqanizmlərdən istifadə olunan uçotu, qeydiyyata alınması, qeydiyyatdan çıxarılması, texnikaların lizinqdə olması, İpoteka yüklülüyü, dublikat şəhadətnamə və nömrə verilməsi, texnikaların texniki baxışdan keçirilməsi, texnika sürücüsü vəsiqələrinin verilməsi (dəyişdirilməsi), bütün bu proseslərin izlənilməsi və lazımi hesabatların çıxarılması əməliyyatları, müraciətlərin elektron qaydada qəbulu və sürücülük vəsiqəsi üçün imtahanların (test) keçirilməsi əməliyyatları qanunlar.

Dövlət Fitosanitar Nəzarəti Xidməti tərəfindən göstərilən "Bitki və bitkiçilik məhsullarının ixrakına icbari karantin icazəsinin verilməsi üçün müraciət və sənədlərin qəbulu", "Bitki və bitkiçilik məhsullarının ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisinda dəyişməsina və dövriyyəsinə təkrar ixracat fitosanitar sertifikatının və fitosanitar sertifikatlarının verilmasi üçün müraciət və sənədlərin qəbulu" və "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması və qeydiyyata alınması üçün müraciət və sənədlərin qəbulu" xidmətləri elektron xidmətlərin siyahısına daxil edilmişdir.

Aqrar sahədə "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminin təşkili, fəaliyyəti və bu sistemin digər dövlət informasiya sistemləri və elektronlar ilə inteqrasiyası məsələlərinin tənzimlənməsi məqsədilə Nazirlər Kabinetinin 30 dekabr 2014-cü il tarixli 408 nömrəli Qərarı ilə "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminden istifadə Qaydaları" təsdiq edilmişdir. Qaydalara müvafiq olaraq hazırda Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsinin mövcud olan məlumat bazaları və "Elektron hökumət" portalı ilə müvafiq məlumat mübadləsinin həyata keçirilməsi üçün informasiya işləri aparılır. Təsərrüfat kitabı üzrə müvafiq qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na ilə "Elektron Kənd Təsərrüfatı Nazirliyi tərəfindən göstərilən 19 elektron xidmət "Elektron hökumət" portalına inteqrasiya edilmişdir.

Kənd Təsərrüfatı Nazirliyinin institusional potensialının gücləndirilməsi məqsədilə köklü struktur dəyişiklikləri aparılmışdır

Aqrar islahatların müasir mərhələsində kənd təsərrüfatı üzrə dövlət tənzimlənməsi sistemının təkmilləşdirilməsi istiqamətində komplekt tədbirlər hayata keçirilmişdir. Canab Prezident tərəfindən imzalanan "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014-cü il tarixli Fərman bu sahədə bir sıra tarixi əhəmiyyətli qərarların verilməsi baxımından mühüm əhəmiyyəta malikdir.

Rayonlar üzrə agrar siyasətin hayata keçirilməsinin təmin edilməsi, kənd təsərrüfatına dövlət dəstəyi tədbirlərinin təşkili, agrar sahəyə aid problemlərin həllinda müvafiq hərəkat rıcası hakimiyyəti orqanlarının yerli strukturlarının bölmələri ilə samarlı əlaqələndirilməsi qurulması üçün Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin yaradılmasına başlanılmışdır. Bu idarələrda vakant vəzifələrin tutulması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birgə müvafiq prosedurlara başlanılmışdır. Hamçinin 52 rayon və şəhər idarəsi üçün inzibati və laboratoriya binalarının tikintisi aparılır.

Eyni zamanda, Nazirliyin aparatının mövcud strukturu və struktur bölmələrinin fəaliyyəti etrafı tahlil olunaraq bu strukturun saha üzrə prioritetləri müayyən edilmişdi və sistemli islahatların hayata keçirilməsi ilə bağlı məsələlərin operativ və keyfiyyətli şəkildə həllini təmin etmək potensialına malik olmağı müayyən edilmişdir. Bununla alaqadar Aparatın strukturunun təkmilləşdirilməsi maqsədi ilə müvafiq tədbirlər hayata keçirilmiş, analitik potensialın gücləndirilməsi, ərazi saha üzrə informasiya bazasının təkmilləşdirilməsi və statistik hesabatlılıq səviyyəsinin yüksəldilmasi məqsədilə Nazirliyin Aparatında İcmalladırılma və statistik tahlil şöbəsi, elektron kənd təsərrüfatı sisteminin qurulmasının ilkin mərhələsi kimi İnformasiya texnologiyalarının tətbiqi və elektron idarəetmə şöbəsi, habelə Elm və tahsil şöbəsi yaradılmışdır. Digər strukturlar bölmələrin fəaliyyəti üçə yenidən təşkil olunmuşdur.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 3 oktyabr 2014-cü il tarixli 761 nömrəli Sərəncamı ilə Respublika Torpaq Müəssisəsinin, Azərbaycan Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasının və Respublika Pambıq Toxumunu Nəzarət Stansiyasının əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmət yaradılmışdır ki, bu da dəyişiyən nəzarət üzrə institusional potensialın gücləndirilməsinə xidmət edən bir qərardır. Hamçinin bu Sərəncamla Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin əsasında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin yaradılması, Nazirliyin institusional potensialının gücləndirilməsi və funksiyalarının effektiv şəkildə ərazi baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, Dövlət Xidmətinin yaradılması kənd təsərrüfatı sahəsində hayata keçirilən inkişaf layihələrinin səmərəli şəkildə idarə edilməsina imkan yaratmışdır.

Kənd təsərrüfatı və ərzaq mühafizəsinin tahlükəsizliyina və keyfiyyətina nəzarət sisteminin institusional baxımdan takmilləşdirilmasi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki laboratoriyaların fəaliyyətinin təkmilləşdirilməsi və onların yenidən qurulması tədbirləri hayata keçirilmişdir. Baytarlıq nəzarəti üzrə potensialın gücləndirilməsi tədbirləri çərçivəsinda Baytarlıq Elmi-Tədqiqat İnstitutu üçün yeni 4 mərtəbəli inzibati-laboratoriya binasının tikintisi, eləcə də Respublika Baytarlıq Laboratoriyasının və Dövlət Baytarlıq Nəzarəti Xidmatinin mərkəzi aparatının inzibati binasının beynəlxalq standartları tələblərina uyğun şəkildə yenidən qurulması işləri davam etdirilmişdir. Respublika Baytarlıq Laboratoriyasının ərazisinda yeni "Baytarlıq Şəhərciyi" yaradılmışdır.

Hazırda Respublika Baytarlıq Laboratoriyasının ISO/IEC 17025:2009 "Sınaq və kalibrləmə laboratoriyalarının salahiyyətliliyinə ümumi tələblər" əsasında akkreditasiyadan keçirilməsi üçün müvafiq prosedurlara uyğun işlər davam etdirilir. Hamçinin Respublika Baytarlıq Laboratoriyasının Sahiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə "3-cü Bioloji Təhlükəsizlik Səviyyəli Laboratoriya" (BSL-3) beynəlxalq standartına uyğun Mərkəzi Referens Laboratoriyasının tikintisi yekunlaşma mərhələsindədir. Artıq bu laboratoriya üçün Avropa İttifaqının maliyyə dəstəyi ilə müasir standartlara uyğun avadanlıqların alınması və qurağdırılması məqsədilə müvafiq satınalma prosedurları başa çatdırılmışdır.

Bundan başqa, "2-ci Bioloji Təhlükəsizlik Səviyyəli Laboratoriya" (BSL-2) beynəlxalq standartına uyğun beş zona baytarlıq laboratoriyası tikilərək, müasir avadanlıqlarla temin olunmuş və istifadəyə verilmişdir. Hazırda yeddi zona baytarlıq laboratoriyasının BSL-2 beynəlxalq standartına uyğun tikintisi və onların müasir laboratoriya avadanlıqları ilə tachiz olunması üçün müvafiq işləri başlanılmışdır.

Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturu köklü şəkildə inkişaf etdirilir

Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun daha da inkişaf etdirilmesi, o cümlədən topdansatış bazarlarının genişləndirilməsi və yenilənməsi, yeni "yaşıl marketlər" şəbəkəsinin və "fermer mağazalarının" yaradılması, müasir standartlara uyğun ət kəsimi mərhələlərinin tikilməsi, ixrac istiqamətində logistik mərkəzlərin qurulması, bu işə müvafiq dövlət dəstəyinin verilməsi agrar islahatların müasir mərhələsinda dövlət başqısı tərəfindan müayyan olunmuş əsas istiqamətlərdən birisindadır. Bazar infrastrukturunun effektivliyini artırmaqla, istehsalçılar üçün əlverişli bazar şərtlərinin daha da xaşrişləşdirilməsinda mühüm rol oynayacaq bu tədbirlərin də ərazi istiqamətində ardıcıl tətbiqini görülür.

Bakı şəhəri və Abşeron rayonu ərazisinda kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, daşınması və satışı temin edacak və tutumu 110 min ton olan 3 logistik mərkəzin və daxilinda fermer mağazaları" da fəaliyyət göstərəcək "yaşıl market" kompleksinin layihələri hazırlanmış və bu layihələrin gücləndirilməsi ilə bağlı tədbirlər görülmüşdür. Hazırda hemin layihələr üzra tikinti-quraşdırma işləri aparılır. Bundan başqa, kənd təsərrüfatı məhsullarının yeni satış mərkəzlərinin yaradılması məqsədilə Sumqayıt və Gəncə şəhərlərinda, Şəmkir, Şəki, İsmayıllı, Masallı və Tovuz rayonlarında müvafiq layihələrin icrasına başlanılmış və ya ilkin təşkilati tədbirlər görülmüşdür.

Meyva-tərəvəz məhsullarının ölkəda ən böyük topdansatış bazarı olan ve Bakı şəhərinin Qaradağ rayonu erazisinda fəaliyyət göstərən ticarat markazinda ərazisi 35 hektardan 59 hektara qədər genişləndirilmişiq, nəticədə 1000-dən artıq yeni satış yeri, 4 yeni quru anbar və 1 yeni soyuducu anbar yaradılmışdır.

Ötən ildən elibaren kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun takmilləşdirilməsi tədbirləri çərçivəsinda baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə uyğun şəkildə yeni satışı mərkəzlərinin yaradılmasına başlanılmışdır. Bakı şəhəri ərazisinda bu cür 3 satış mərkəzinin təşkili üçün yerlər müayyan olunmuş, müvafiq layihələrdinə işləri aparılmış və tikinti-quraşdırma işləri davam edilmişdir. Artıq cari ilin sentyabr ayında Bakı şəhərinin Xəzər rayonunun Buzovna qəsəbəsinda yerləşən və müasir tələblərə uyğun heyvan kəsimi mantəqəsi fəaliyyətə başlamışdır.

Bundan əlavə, ölkəda istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracının artırılması məqsədilə Qazaxıstanın Aktau şəhərinda logistik mərkəzin tikintisinə başlanılmışdır. Belə mərkəzlərin digər ölkələrdə da yaradılması istiqamətinda tədbirlər davam etdirilir.

Ölkənin digər rayon və şəhərlərinda kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun inkişaf etdirilməsi ehtiyaclarının öyrənilməsi, umumilikdə isə kənd təsərrüfatı məhsulları bazarı üzrə müvafiq tənzimlənmə sisteminin köklü şəkildə inkişaf etdirilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə tədqiqatlar hayata keçirilir, bu sahədə Avropa ölkələrinin təcrübəsi etrafı şəkildə öyranilir. Hazırda Azərbaycan Respublikası Nazirlar Kabinetinin tapşırığına əsasən kənd təsərrüfatı məhsulları bazarının dövlət tənzimlənməsi sisteminin daha da takmilləşdirilməsi məqsədilə müvafiq qanunvericilik aktlarının hazırlanması istiqamətinda İqtisadiyyat və Sənaye Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən birgə iş aparılır.

2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması ilə bağlı Tədbirlər Planının icrası çərçivəsinda kənd təsərrüfatı məhsullarının topdansatış və perakəndə satış qiymətləri ilə bağlı elektron malumat bazası yaradılmışdır. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hayata keçirilən gündəlik monitorinq malumatlarına əsaslanan bu malumat bazası noyabr ayından etibaren Nazirliyin internet sahifəsi vasitəsilə bazar iştirakçıları və ümumilikdə ictimaiyyət üçün açıq olacaq.

Kənd təsərrüfatının inkişafı ilə bağlı ən müasir, mütərəqqi metodlar tətbiq edilir

Ölkəmizdə bütün sahələrin mərdenləşdirilmesi ilə bağlı canab Prezident tərəfindən müayyan olunmuş siyasət, kənd təsərrüfatında da inkişafın müasir və mütərəqqi metodlarının tətbiqinə rəvac vermişdir. Indi kənd təsərrüfatı sahəsi üzrə müasir istehsal texnologiyalarının tətbiqi ilə barabar, mütərəqqi təşkilatı mexanizmlərin da formalaşdırılmasına başlanılıb.

Artıq Azərbaycan aqrar sahəda XXI əsrin müasir bizness texnologiyası olan aqroparkların yaradılması ilə bağlı ilkin praktiki təcrübəyə malikdir. 2014-cü il 15 noyabr tarixinda dövlət başqısının iştirakı ilə tamamlanan "Şəmkir Aqropark"ın tikintisinə başlanılmışdır. 604 hektar ərazida yaradılacaq "Şəmkir Aqropark"inda müasir istixana kompleksi, şəltik, tinqlin və intensiv bağcılıq təsərrüfatları, meyve və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələri inşa olunacaq.

Eyni zamanda, cari ildən Xaçmaz rayonunun Yalama qəsəbəsinda 523 hektar torpaq sahəsinda "Yalama Aqropark"ın yaradılmasına başlanılmışdır. Aqropark daxilinda cins heyvandarlıq kompleksinin, qarışıq yem və süd emalı zavodları, istixana kompleksi, intensiv bağçılıq təsərrüfatlarının yaradılmasını nəzərdə tutulur. Bununla yanaşı, Xızı rayonunun Yeni Yaşma kəndinda 1000 ha torpaq sahəsinda yaradılacaq "Xızı Aqropark"da cins heyvandarlıq kompleksinin tikintisinə başlanılmış, ət kəsimi və ət emalı sahəsinin, istixana kompleksinin və bağçılıq təsərrüfatlarının yaradılması istiqamətində isə müvafiq işlər aparılır.

Aqroparklarda müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika - mahsulun saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış, yaşıl marketlər və fermer mağazaları üzrə fəaliyyətlərin vahid erazida camlaşması rəqabətqabiliyyatlı kənd təsərrüfatı və ərzaq mahsullarının istehsalına şərait yaradacaq. Aqroparklar ham da regional logistika mərkəzləri, iri tədarükçülər olaraq kişik təsərrüfatlar üçün bazar imkanlarının genişləndirilmasi baxımından xüsusilə mühəst tasirə malik olacaq.

Intensiv ferma modelina dövlət dəstəyi siyasəti çərçivəsinda kişik aile təsərrüfatlarının bazardakı mövqeyinin möhkəmlənməsina dəstək məqsədilə kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Ötlik-südlük istiqamətli müasir aile-fermer təsərrüfatlarının yaradılması" layihəsinin icrasına başlanılmışdır. Layihənin tətbiqi üçün pilot rayonlar kimi seçilmiş Ağcabədi, Bərdə və İmişli rayonlarında müasir aile-kəndli təsərrüfatlarının yaradılması yolu ilə kənd əhalisinin həyat səviyyəsinin yüksəldilmasi sahəsinda tədbirlər hayata keçirilir. Layihə çərçivəsinda pilot ərazilərdə seçilmiş pay torpaqlarına sahib ailələrə güzəştli lizinq şərtləri ilə etlik-südlük istiqamətli damazlıq heyvanlar verilacak, onlar güzəştli kreditlərlə temin olunacaq. Hamçinin layihə çərçivəsinda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fermerlara heyvandarların müasir təsərrüfatçılıq tərzdəki, o cümlədən yem istehsalı və yem bitkilərinin əkinçiliyi, heyvanların saxlanma şəraitinin zoogigiyenik tələblərə uyğunlaşdırılması, istehsal edilən mahsulun marketinqinin təşkili, heyvandarların kənd-lik birliklər formasında birləşmasi və mövcud ehtiyatlardan səmərəli istifadə sahəsinda texniki dəstək verilmişdir.

Dövlət başçısının yeni imzaladığı sərəncama əsasən, digər kənd təsərrüfatı texnikaları kimi, akin sahələrinin becərilməsinda istifadə olunan müasir suvarma avadanlıqlarına da dövlət tərəfindən stimullaşdırılmasına başlanılıb. Belə ki, "Aqroliizinq" ASC tərəfindən istehsalçılara satılan müasir suvarma avadanlıqlarının dayanım 40 faizi dövlət büdcəsi hesabına ödəniləcək. Bu dəstək siyasəti kənd təsərrüfatında ənənəvi olaraq tətbiq edilən "sellərə üsulu" ilə suvarma metodundan, tədrican su və torpaq resurslarına qənaət edən müasir suvarma üsullarına keçid üçün mühüm stimullaşdırıcı əhəmiyyət daşıyacaq.

2015-ci ildə respublikada ilk dəfə olaraq qabaqcıl beynəlxalq təcrübəda bitki mühafizəsi sahəsinda bioloji mübarizə üsullarının samarali vasitələrdən biri kimi qəbul edilən trixoqrammanın istehsalı bərpa edilmiş və sahələrda bioloji mübarizənin tətbiqinə başlanılmışdır.

Kənd təsərrüfatinda intensiv metodlarla inkişafının temin edilmasi məqsədi ilə hazırda Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutlarının fəaliyyət planlarında əsas istiqamət kimi yeni əkinçiliyin üsullarının işlənib hazırlanması, yerli şəraite vuşun yeni mahsuldar toxum sortlarının yaradılması və bunların tətbiqi ilə bağlı yerlərdə fermerlarin malumatlandırılması və onlara praktiki dəstəyin verilmasi çəxş edir.

Cari ildən elibaren Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Avropa Birliyinin tacrübəsi esasinda "Fermer Təsərrüfatlarının Monitorinqi Malumatları Sistemi" yaradılır. Qeyd etmək lazımdır ki, bu sistem postsovet məkanında ilk dəfə mehz Azərbaycanda tətbiq olunmağa başlayıb. Bu sistemin yaradılmasında maqsəd kənd təsərrüfatı mahsulları istehsalçılarının fəaliyyətinin effektivliyini qiymətləndirməkdən və təsərrüfatlar səviyyəsinda istehsal göstəricləri üzra detallı malumatlar toplamaqdan ibarətdir. Bu maqsədlə Avropa Birliyinə üzrə effektivliyə tətbiq edilən metodologiya əsasında cari ildən ölkəin bütün rayonlarını və kənd təsərrüfatı mahsulları istehsalının bütün sahələrini əhatə etməklə müvafiq statistik seçmə tədbiri ilə müayyan edilmiş 4045 təsərrüfat arasında tədqiqat sorğuların apanılmış və müvafiq malumat bazası formalaşdırılmışdır.

Kənd təsərrüfatı sahəsi intensiv metodlarla inkişaf mərhələsinə qədəm qoymuşdur

Malum olduğu kimi, hər hansı bir sahədə aparılan islahatların köklü nəticələri, adətən bir neçə İldən sonra özünü bürüzə verir. Çox qünurverici haldır ki, aqrar islahatların müasir mərhələsi çərçivəsinda görülən işlər artıq öz müsbət nəticələrini vermiş, bu sahədə inkişafın keyfiyyətcə yeni mərhələsinə keçid üçün əsas yaratmışdır. Bu mühüm faktı bu deyilənləri ayani şəkildə xarakterizə edir.

Birincisi, cari ilda kənd təsərrüfatı sahəsinda mənfəət istehsalının artmı göstəricisi son 15 il üzrə ən yüksək səviyyədə olmuşdur. Bu göstərici ölkəda hayata keçirilən agrar islahatların birinci mərhələsinin artıq öz nəticələrini vermaya başladığı 1999-2001-ci İllərin nəticələri ilə oxşardır.

İkincisi, cari ilda kənd təsərrüfatı sahasinda mənfəət olunan meyillər hem bitkiçilik sahəsinda, hem de heyvandarlıq sahəsinda artmın daha çox intensiv faktorlar hesabına temin edildiyini gösterir. Belə ki, müvafiq akin sahələrinda ötan illə eyni səviyyədə və ya daha az olmasına rağmen, mahsuldarlığın yüksəlməsinda temin olunmuşdur.

Azərbaycan Respublikasının ərazisinda FAO tərəfindən yüksək qiymətləndirilmişdir

Ölkəda hayata keçirilan aqrar islahatların yeni mərhələsinda çərçivəsinda görülən işlərin və əldə olunan uğurların nəticəsidir ki, Azərbaycan dövləti ərzaq təhlükəsizliyinin gücləndirilməsi və kənd yerlərinda əhalinin yaxşılaşdırılmasına istiqamətinda ciddi uğurlar qazanıb. Bu uğurlar beynəlxalq təşkilatlar tərəfindən da yüksək qiymətləndirilmişdir.

2015-ci il 07 iyun tarixinda Roma şəhərinda keçirilmiş FAO Konfransında Azərbaycan yoxsulluq və zəif qidalanma ilə mübarizə sahəsinda eldə etdiyi nailiyyətlərə görə FAO-nun mükafatı ilə təltif olunmuşdur. Ölkəmizin bu mükafata layiq görülməsini Azərbaycanda ərzaq təhlükəsizliyi sahəsinda hayata keçirilmiş islahatların nəticələrinin beynəlxalq miqyasda tanınması, yoxsulluğa mübarizə və insanların ən ali hüququ olan ərzaq hüququnun təminatı sahəsinda götülən işlərə FAO tərəfindən verilən müsbat qiymətin tezahürü kimi qiymətləndirmək olar.

Azərbaycan dövləti aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və kənd yerlərinda əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətinda beynəlxalq əməkdaşlığı davamlı şəkildə hayata keçirir. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təşəfqəliq və elaqələrindəki rəsmi xəbərləri sahəsi üzrə Regional Ofisinin bir sayda ölkələrdən biridir. Heydər Əliyev Fondunun vitse-prezidenti xanım Leyla Əliyevanın FAO-nun xoşməramlı səfiri adına layiq görülməsi, onun bu fəaliyyətdəki qoşulması FAO ilə Azərbaycanın genişlənməsinda, daha da inkişaf etdirilməsinda mühüm rol oynayacaq. FAO ofisinin yaradılması Azərbaycan üçün böyük nailiyyətdir. Çünki bununla Azərbaycan yalnız ölkəmizin özünda kəsibçiliyin azaldılmasına çalışan ölkə kimi yox, kəsibçiliyə yardım edən donor dövlət statusu almış olur. Bu da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasətin daha bir nəticəsi yeni nəticəsidir.

Heydər ƏSƏDOV,
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.